bir xəyal qur...

Kitabın sahibi

Oxu tarixi

♡ ♡ ♡ ♡ ♡

Ürək ver

# BALACA CADUGƏR

OTFRİD PROYSLER

Alman dilindən tərcümə:

Cəmilə İsmayılzadə

Simurq

Koordinator: Amin

Redaktor: Günel ŞAMİLQIZI

Korrektor: Turac ELDARQIZI

İllüstrator: Leyla NOVRUZOVA

Tərtibatçı: İsmayıl SÜLEYMANLI

Dizayner: Azər ƏSGƏRZADƏ

**Otfried Preußler**
**DIE KLEINE HEXE**

**Otfrid Proysler**
**BALACA CADUGƏR**

Bakı, "Simurq" Nəşriyyatı – 2023, 136 səh. / II nəşr

**© Thienemann Verlag / 1957**
**© Parlaq İmzalar MMC / 2019**
Kitab "Thienemann-Esslinger Verlag GmbH." ilə bağlanılmış müqavilə əsasında nəşr olunur. Kitabın Azərbaycan dilində nəşr hüququ "Parlaq İmzalar" Nəşriyyatına məxsusdur. Bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Simurq Nəşriyyatı | 3

ISBN 9952547788-8
9789952547788

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

GOETHE INSTITUT
Kitabın tərcüməsi "Goethe" institutunun maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
Çap tarixi: 06.04.2023
Sifariş: 04(20)/23

**Otfrid Proysler** 1923-cü il oktyabrın 20-də Çexiyanın Rayxenberq (indiki Liberets) şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra İkinci Dünya müharibəsinə qatılıb. 1944-cü ildə leytenant kimi Sovet ordusuna əsir düşüb. 5 il SSRİ düşərgələrində əsir həyatı yaşayıb. 1949-cu ildə vətənə qayıtdıqdan sonra ailə həyatı qurub və müəllim kimi fəaliyyət göstərib.
Proyslerin ilk kitabı, "Balaca su pərisi" 1956-cı ildə çap olunub. 1957-ci ildə nəşr olunan "Balaca Cadugər" kitabı ona çox böyük uğur gətirib.
Proysler yazdığı uşaq kitablarına görə 10-a yaxın mükafata layiq görülüb. Onun uşaq kitablarının motivləri əsasında tamaşalar qurulub, filmlər çəkilib. Yazıçı 2013-cü il fevralın 18-də dünyasını dəyişib.

**Cəmilə İsmayılzadə** 1987-ci ildə Qazaxın Çaylı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsində bakalavr təhsili alıb, daha sonra isə Almaniyada Beynəlxalq münasibətlər üzrə magistratura pilləsini bitirib. "Bumeranq" kitab klubunun təsisçisidir. Azərbaycan Dövlət İdman Akademiyasının beynəlxalq əməkdaşlıq şöbəsinin müdiridir. Məşhur alman yazıçısı Erix Kestnerin "Uçan sinif" kitabını tərcümə edib.

# Mündəricat

Qara qızın dərdi varmış... 9
Yaşasın Valpurgiya gecəsi! 16
Qisas planları 25
Süpürgə satırsınız? 30
Xoşniyyət 34
Qasırğa 39
İrəli, mənim balam! 44
Kağız güllər 51
İbrətamiz dərs 58
Cümə günü qonaqları 64
Tilsimlənmiş atıcılar bayramı 73
Şabalıdsatanın hekayəsi 80

Yeddi ətək geyməkdənsə... 88
Qar adamı 92
Mərc gələk? 98
Meşədə karnaval 103
Bouling həvəskarı 109
Ağaca yapışan oğlanlar 115
Cadugərlər Yığıncağı 121
Cücəni payızda sayarlar 127

# Qara qızın dərdi varmış...

Biri var idi, biri yox idi. Bir Balaca Cadugər vardı. Onun cəmi **127** yaşı var idi. Bəli, bəli, bir cadugər üçün bu, çox kiçik rəqəmdir.

O, meşənin dərinliyindəki komasında yaşayırdı. Cadugər özü balaca olduğundan evi də elə böyük deyildi. Ancaq Balaca Cadugərə bu bəs edir, heç bundan yaxşısını ağlından da keçirmirdi. Onun bu gözəl evinin damı yanpörtü, bacası əyri idi; pəncərə taxtaları cırıltılı səslər çıxarırdı. Evin arxasında isə bir **soba** tikilmişdi. Bax bu, mütləq, lazım idi. Çünki sobasız cadugər evini təsəvvür eləmək olmaz!

Balaca Cadugərin danışmağı bacaran bir qarğası var idi. Onun adı **Abraksas** idi. O, danışma-

ğı öyrənmiş başqa qarğalar kimi təkcə "Sabahın xeyir!" və "Axşamın xeyir!" deyib qarıldamırdı – əməlli-başlı danışırdı. Balaca Cadugər ona çox dəyər verirdi. Çünki o, müdrik bir qarğaydı, bütün məsələlərdə ona məsləhətlər verirdi. Çox da açıqsözlü idi.

Balaca Cadugər günün 6 saatını məşq edirdi. **Cadugərlik elə də asan iş deyil ha!** Bu işdə uğur qazanmaq istəyən tənbəl olmamalı, əvvəl kiçik sirləri, daha sonra böyük sirləri öyrənməlidir; ovsun kitabını səhifə-səhifə əzbərləməli, birçə tapşırığı belə ötürməməlidir.

Balaca Cadugər ovsun kitabının hələ iki yüz on üçüncü səhifəsində idi. O necə yağış yağdırmağı məşq edirdi. Sobanın qarşısında skamyada əyləşib, kitabı da dizinin üstünə qoyub ovsun oxuyurdu. Qarğa Abraksas da narazı halda onun yanında oturmuşdu.

– Yağış yağdırmalısan e! – o məzəmmətlə qırıldadı. – Ancaq sən neynirsən? Birinci dəfə göydən ağ siçan, ikinci dəfə qurbağa, üçüncü dəfə isə şam qozası töküldü. Mənə maraqlıdır ki, görəsən, heç olmasa, bu dəfə düz-əməlli yağış yağdıra biləcəksən?!

Bu an Balaca Cadugər dördüncü dəfə yağış yağdırmağa cəhd edirdi. O, buludun birini səmaya qaldırdı, yaxına çəkdi və bulud düz başlarının üstünə çatanda qışqırdı:

– Yağ!

Bulud aralandı və göydən pendir suyu tökülməyə başladı.

– Pendir suyu?! – Abraksas qıy çəkdi. – Mənə elə gəlir ki, sən tamam ağlını itirmisən. Göydən başqa nə yağdıracaqsan? Bəlkə, paltar tutqacı? Yoxsa mismar? Barı, çörək qırıntısı və kişmiş olsa...

– Yəqin, sehr oxuyanda çaşmışam, – Balaca Cadugər tərəddüdlə dedi.

O əvvəllər də çaşmışdı, ancaq **4** dəfə ard-arda heç vaxt olmamışdı.

**– Çaşıbmış!** – Abraksas donquldandı. – İstəyirsən, deyim niyə alınmır? Çünki sənin fikrin-zikrin dağınıqdır. Sehr oxuyanda başqa şeylər düşünsən, axırı belə olar daa. Diqqətini toplamalısan.

– Ola bilər. – Balaca Cadugər məyus-məyus dilləndi və hirslə ovsun kitabını – şappp – bağladı. **– Sən düz deyirsən!** – elə əsəbi-əsəbi də





sözünə davam elədi. – Fikrimi cəmləyə bilmirəm. Bilirsən niyə? – o, qarğaya baxıb gözlərini bərəltdi. – Çünki mən... **HİRS-LƏN-Mİ-ŞƏM.**

– Hirslənmisən? Kimə axı?

– Məni o cinləndirir ki, bu gecə Müqəddəs Valpurgiya[1] gecəsidir. Bütün cadugərlər Bloksberq dağına toplaşıb rəqs edəcəklər.

– Nə olsun?

– Necə yəni nə olsun? Yaşlı cadugərlər fikirləşir ki, mən cadugər rəqsi üçün çox balacayam. Bloksberqə gedib onlarla rəqs etməyimə icazə vermirlər.

Qarğa Balaca Cadugərə təskinlik verməyə çalışdı:

– Qulaq as, cəmi 127 yaşın var, qoca cadugərlərin səni ciddi qəbul etmələrini gözləyirsən? Bir az böyü, sonra görəcəksən, hər şey istədiyin kimi olacaq.

**– Xeyr!** – Balaca Cadugər qışqırdı. – Mən elə bu dəfə orada olmaq istəyirəm! Başa düşürsən?

– Gərək, ayağını yorğanına görə uzadasan, – qarğa qırıldadı. – Sənin hirslənməyinlə nə dəyişəcək? Ağlını başına topla! Neynəmək istəyirsən?

---

1. Valpurgiya – cadugərlərin Bloksberq dağına toplaşıb baharın gəlişi münasibətilə keçirdikləri bayram – Red.

– Mən nə edəcəyimi yaxşı bilirəm! – Balaca Cadugər dedi. – Bloksberqə uçacağam.

Qarğa qorxdu.

– Bloksberqə? Axı yaşlı cadugərlər bunu sənə qadağan ediblər! Onlar öz aralarında rəqs etmək istəyirlər.

– Mənə nə! – Balaca Cadugər yenə qışqırdı. **– Çox şey qadağandır.** Gözlərindən yayına bilsəm, heç nə də olan deyil.

– Onlar səni tutacaqlar! Qarrr... – Qarğa qarıldadı.

**– Boş söhbətdir!** Başları rəqsə qarışanda mən də onlara qoşulacağam. Şənlik bitər-bitməz aradan çıxacağam. Bloksberqin üstünə çökən qatı dumanda heç kim məni görməyəcək.